# Azərbaycan komandoları Moskvada Qızıl meydanda təntənəli marşla keçid ediblər



**Azərbaycan Respublikasının Komando briqadasının parad heyəti faşizm üzərində Qələbənin 80-ci ildönümünə həsr olunmuş hərbi parad çərçivəsində Moskvada Qızıl meydanda təntənəli marşla keçid ediblər. Parad heyətinə polkovnik-leytenant Samit Məmmədov rəhbərlik edib.**

AZƏRTAC xəbər verir ki, Qələbə paradında MDB ölkələri də daxil olmaqla, 13 xarici dövlətin parad heyətləri iştirak edib. Azərbaycanla yanaşı, Qırmızı meydandan təntənəli marşla Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, eləcə də Vyetnam, Misir, Çin, Laos, Monqolustan və Myanmanın hərbçiləri keçiblər.

Rusiya Prezidenti Vladimir Putin parad iştirakçılarına və Rusiya vətəndaşlarına müraciət edib. O, çıxışında nasizmin məğlub edilməsində keçmiş SSRİ respublikalarının rolunu qeyd edərək, Cənubi Qafqaz və Orta Asiya xalqlarının qəhrəmanlığını xüsusi vurğulayıb. Onun sözlərinə görə, "buradan cəbhənin ehtiyac duyduğu hər şeylə yüklü vaqonlar fasiləsiz yola düşüb. Burada hospitallar yerləşdirilib və yüz minlərlə təxliyə olunmuş insan özünə ikinci vətən tapıb. İnsanlar evlərini, çörəklərini və mənəvi dəstəyini onlarla bölüşüb".

Qızıl meydandakı parad bütün həlak olmuşların xatirəsinə birdəqiqəlik sükutla başa çatıb.

Azərbaycan. - 2025.-10 may (№95).- S.18.